# Qazaxıstanın Qütb ulduzu - Abay

(başlanğıcı ötən sayımızda)

*Bu üç ayin Yaradana ibadət üçün nəzərdə tutulub, peyğəmbər tərəfindən icra olunur, peyğəmbər həzrətləri övliyalara öyrətdi, övliyalar oxudu, aşiq oldu və özlərinin axirətini qazandılar. Aşiqlər bu dünyanı unutdu və heç nəyə tamah salmayıb, dünyanın ləzzətini hesaba almadılar. Hakimlər isə bu dünyadakı həyatı düşündü və buna sövq etdilər. İbrət gözü ilə baxanda, ikisi də fikir və düşüncələrində bir- birinə bənzəyirdi. Ona görə də hər birinin danışdığı, dediyi başqa olsa da, birlikdə məsləhətləşib, ulu Yaradanın sünnətinə baxıb, onun buyurduğu kimi hərəkət etməyin vacibliyini unutmadılar. Məsləhətin sonu ibrət- lənməkdir. Ağılla elm – ikisi də, özünü zora salmağı, əsəbləşməyi, zalımlığı sevməz, insanların bir-birini aldatmağını xoşlamaz. Ədalət dediyin hər ikisinin mərhəmətli və şəfqətli olmasını buyurur, bunun adı rəhmdir. Mən belə düşünürəm ki, bu iki tahifənin hər biri öz nəfsinin faydası üçün çalışır. Bütün mübahisələr sonda məm- nunluqla bitməlidir. Elm və Ağıl, insan təbiəti kimidir, öz üzərində zorluğu, təzyiqi sevməz, onlar səmimi olmayanı qəbul etməzlər, elm bizə xeyirxahlıq, səmimiyyət öyrədirsə, bax, bu, Mərhəmətdir. Mən belə düşünürəm ki, övliyalar da, alimlər də mübahisə və müzakirələri özlərini şöhrətləndirmək üçün edir. Əgər müqəddəslə- rin dediyi kimi, insanlıq özünü kamilləşdirmək üçün ancaq ruhaniyyət, din, təriqət yolunu tutsa idi, dünya boşalardı. O zaman malheyvanı kim otaracaqdı? Düşmənin qarşısına kim çıxacaqdı? Kim dərzilik edəcəkdi? Kim buğda əkib-biçəcəkdi? Yerin altının və üstünün xəzinələrini kim çıxaracaqdı?*

Ulu Tanrının verdiyi əziz nemətləri haram və ya məkruf adı ilə bölərək, onun verdiklərinə qulp qoyub: "bunu yemək olmaz, onu içmək olmaz", – deməklə ruzimizi özümüzdən qaçır- mırıqmı? Bununla da ən böyük günah qazanmı- rıqmı?

Nemət sahibinə şükr etməməklə ədəbsizlik etmirsənmi? Bu yolu seçənlərin izi təmamilə yox olur və ya kafirlərin qurbanı olur; sınağa dözə bilməyənlər isə buyrulmuş yoldan çıxmış olur. Əgər bu yol müsəlmanların yarısı üçündürsə, o zaman belə bir sual yaranır: məgər yarımçıq həqiqət olur? Həqiqət hamı üçün birdir. Məgər həqiqəti tək-tək seçib götürürlər? – Seçilmiş həqiqət?.. – Belə seçim varsa, o zaman həmin xalq bütöv olub birləşə və yaşaya bilməz. Çünki ömür ən böyük həqiqətdir. Ömür yox olan yerdə kamillik olmaz.

Övliyaların da hamısı tərkidünya deyildi. Həzrəti Məhəmməd sağlığında yanındakı üç nəfər – Həzrəti Osman, Abdurəhman bin Ğauf və Said İbin Əbu Vəkkas zəngin idilər. Müqəddəslərin dünya malına göz yumub, qıraqdaqalmasına kimi inandırmaq istəyirsiniz? Onlar özləri də insanların arasına çıxıb, insanları var-dövlət hərisliyindən çəkindirməyə çalışdı. Elə bilirdilər, müsəlmanlara örnək ola bilə- cək- lər. Bunun onların özlərinə olmayan inamı kimi adlandırmaq olardımı? Ya bu tərki-dünyalıq idimi? O zaman bu, onların inamını azaldardı. Ya da, bu, o demək idi ki, onların dünya malından əl çəkdiyini görən oldumu? Ya bunu görən camaat da malmülk, dövlət yığmaqdan çəkinəcək və peyğəmbərdən, onun dostlarından örnək alaraq, Yaradana aşiqlik yolunu, mərhəmət, xeyriyyəçilik yolunu tutacaqlar, pis əməllərdən xali olacaqlar..? Bilin ki, bu yol çox çətin, çox incə yoldur. Bu yolla Haqqa çatmaq istəyənlər öz inamlarına sadiq olanlardır. Özündən razılıq, başqalarından ucada görünmək insan xislətini korlayır. Hər bir cahilin: "Bir yeni təriqətə qoşulduq" – deməsi, elə pozulmuş mənəviyyat deməkdir.

Mütəfəkkir və alim əslində bir sözdür, yalnız onların dediklərinin dərinliyinə varanda fərqi görə bilərsən. Dünyada zahiri elmlər var ki, onlar ağızdan-ağıza gəzərək, söyləndikcə yazılıbdır, belə yazılar sonradan nağıl adlanır.



Təbərrük Allah heç nəyi səbəbsiz yaratmayıb, bunu "Təfəkkaru fiəla illahi" adlı hədisdə də görmək olar. Orada deyilir ki, Allahın yaratdığına, sənətkarlığına aşiq olub, ibrət almağa qadağa yoxdur, bəlkə də, bu, onun yaradıcılığının sirlərinə aşiq olub, səbəbini bilmək istəyənlərin məhəbbətidir. Ulu Yaradanın varlığını onun yaratdığı qulu dərk edə bilməzsə, "onun aşiqiyəm" demək də doğru deyil. Eşq məşuquna xaliq münasibətdə ulu Tanrının bəndəsi ilə məxluqat ara- sında məhəbbət və mərhəmət yaratdığını bilib, "Məhəbbəti məhəbbətlə qovuşdurmaq, Yaradana xoş gedər" – deyirik. Bəndənin Tanrıya olan məhəbbətinə, Tanrı buyruqlarına sevgi ilə cavab verməsinə Tanrıya olan aşiqlik deyilər.

***Nemət sahibinə şükr etməməklə ədəbsizlik etmirsənmi? Bu yolu seçənlərin izi təmamilə yox olur və ya kafirlərin qurbanı olur; sınağa dözə bilməyənlər isə buyrulmuş yoldan çıxmış olur. Əgər bu yol müsəlmanların yarısı üçündürsə, o zaman belə bir sual yaranır: məgər yarımçıq həqiqət olur? Həqiqət hamı üçün birdir. Məgər həqiqəti tək-tək seçib götürürlər? – Seçilmiş həqiqət?.. – Belə seçim varsa, o zaman həmin xalq bütöv olub birləşə və yaşaya bilməz. Çünki ömür ən böyük həqiqətdir. Ömür yox olan yerdə kamillik olmaz***

*Bu aşiqlik də haqq ilə batili ayırmağa, səbəblərini bilməyə, adam balasının yaxşını pis- dən ayırmağa, oynamaq-gülmək, kef etmək kimi hər şeyi ikinci mərtəbədə qoyub, heç bir şeyin səbəbsiz olmadığını sübut edir.*

Alimlik adına yalnız o kəslər layiqdir ki, onlar Tanrını dərk elədiyi vaxtdan onun yaratdığı hər bir əşyanın və baş verən hadisənin fərqinə varır və alimlərin çoxu dünyanın işlərini düzüb-qoşur, dünyadakı baş verən yeniliklərin onların düşüncəsi və yaratdıqları ilə düzənə düşdüyünü anlayır. "Ət dünya mərzəkətul-axirət" ("Dünya axirətin tarlasıdır") ayəsində deyildiyi kimi, axirətə əkin olacaq dünyadır.

Hər alim hakim deyildir, lakin hər hakim alimdir. Ənənəvi din, alimlərin nəsihəti, rəvayətləri, göstərdikləri yol ilə qazanılır və müdriklərdən aldığı təhsil ilə əsil həqiqəti öyrənir. Bunu ancaq müsəlmanlığın nə olduğunu anlayanlar, sufilər əldə edə bilir. Dünyəvi elmlərin alimləri bəzən ruhani dininin əsasını bilmir, on- lar ancaq insan yaradılışının və məişətinin, yaşayışın sirlərini öyrənməyə meyilli olur. Bunlar imanın 7 şərtini – bir Allahı tanımaqdan qeyri, onun tərəfdaşlarını qəbul etmir. Əgər onlar bizim dini ustadlarımız olmasalar da, dinimizdə Allahın elçisi peyğəmbər səlavatullahın hə- disi-şərifində deyilən "Hayrun-nac, yanfaqun nas" dediyini oxusa, görər ki, "İnsanların ən xeyirlisi faydalı olanıdır", – deyibdir. Bu alimlər yuxunu, rahatlığı, əyləncəni bir qırağa qoyub, yorulmadan insanların həyatını yaxşılaşdırmaq, insanlığa yararlı olmaq üçün axtarışlar aparır. Göydə şimşəkdən işıqelektrik istiliyi alır, ən uzaq məsafələrdən bir-biri ilə əlaqə yarada bilirlər, suyu və odu birləşdirib, ikisinin hərəkəti vasitəsi ilə, minlərlə insanın görəcəyi işi bir binanın içində böyük ixtiralar etməklə yerinə yetirirlər. Alimlərin əməlləri insanın ağlını ka- milləşdirir, bizə yaxşını pisdən ayırmağı öyrədir, buna görə biz onlara minnətdar olmalıyıq.

*Belə zəmanənin mollaları ixtiralar edən ha- kimə, alimə düşmən olar. Bu da onların cahil- liyindən və savadsızlığından, qəlblərində qara fikirlərin olmasından irəli gələn bir xüsusiyyətdir. Onların dərs dediyi şagirdlər ərəb-fars dilində bir neçə dua öyrənir, "hay-huy" ilə dərsi başa vururlar. Və bu cahillər elə bilir ki, dünya, din və elm haqqındakı bütün müzakirələrdə iştirak edə bilərlər. Doğru sözə gor qazıb, tələ qur- maq nə insafdan, nə də dindəndir. Bu, pis niyyət sahiblərinin işidir. Ədalətin bir adı – Haqq, Haqqın bir adı isə Allahdır. Haqqa qarşı çıxmaqsa, Allaha qarşı çıxmaqdır. Bunun sualı olursa cavabını nə ilə verəcəksən?* Belə niyyətləri olan insanın axirətində əzaba düçar olması göstərilir. Peyğəmbərimiz Məhəmməd Səlallahu Əleyhi və əs Səlam "Axır zamanda bir il bir gün olur" və " Bir gündə namaz neçə kərə qılınır?", – deyə soruşanlara: "Onun fətvasını o zamanınalimləri blir", – deyə cavab verib. Bu gün bi- zim övladlarımızın çoxu mədrəsədə təhsil alır, bunun isə heç bir faydası yoxdur. Osmanlıda indi yeni hərbiyyə məktəbləri açılıb, müxtəlif fənlərin öyrədildiyi yeni nizamlı bir məktəb yaranıb. Bizim burdakılar isə uzun illərdir ki, heç bir elmi nailiyyət əldə etmədən, elmə heç bir faydası olmayan söhbətlər edib, başlarını qatır, günlərini keçirirlər və bununla da dərs öyrətmiş olduqlarını zənn edirlər. Bu dünya belə faydasız, biliksiz, cahil insanlarla doludur; belə adamların işigücü qarşısındakını ovlamaq və aldatmaqdan ibarətdir. Ona görə, çox zaman belə işsiz-gücsüz mollaların nəsihətləri də faydasız olur.

Dünyanın gözəlliyi bir çox insanın ağlını işıqlandırır. Yoxsulluq isə bəzən insanı heyvaniləşdirir. Bəlkə, dünya elmlərini bil- məmək, onu öyərnməyə çan atmamaq elə ən böyük çahillikdir – bu "Quran"da da belə yazılıb. Özünü öymək üçün malmülk sahibi olub şöhrətlənməklə, ehtiyacı olana yardım etmək üçün və kimsədən asılı olmamaq üçün var-dövlət qazanmağın arasında böyük fərq var. Biz elmi satıb, mal-mülk qazananlardan deyilik. Əksinə, əlimzdə olan malı-pulu elm öyrənməyə sərf edərik. Hünər və sənətkarlıq elə var-dövlətdir. Bir sənətə sahib olmaq ən böyük ehsandır. Fəqət, bəs edər ki, o sənət əsil olsun, əməlinlə haqqı nahaqqa satmayasan – sənətin işlədiyin şəraitə uyğun olsun. Hər bir adamın insan olması onun borcudur. Başqalarının eh- sanına sevinmək olmaz. Mollalar bir yana dursun, hələ zəmanəmizdəki işanlardan özünüzü gözləyin. Özünə "işan" (seyid) deyən o fitnə alimlərdən zərərdən başqa heç nə gəlməz. Özlə- rinin şəriətin hökmündən xəbərləri belə yoxdur, onların çoxu nadan olur. Guya, dindarlıq yolunu seçib, ətrafdakılara din elmini öyrədirlər, onların öyrətdikləri də özləri qədər ziyanlıdır. Belə adamlar ancaq əbləh və cahillər arasında özlərinə dayaq tapır, onların sözləri-yalan, alim olduqlarının sübutu – təsbeh və başlarındakı əmmamədir, bundan başqa heç nəyləri olmur.

Ay fərzəndlərim (övladlarım), dediklərim indi yəqin ki, sizə agah oldu. Ulu Yaradanın yolu Onun özündən də nəhayətsizdir. Onun nə- hayətinə heç kim yetişməz. Bu yolu sidqürək- lə tutub getmək istəyən, əsl müsəlman ola bilər, həmin adam dolu adam adlanar. Dünyada yola öz məqsədinə çatmaq üçün çıxsan, özün qazanacaqsan, bu yol Tanrının yolu deyil. Əgər sən düşünürsən ki, maldövlət süzülüb ancaq mənim arxıma gəlsin, bu insafdan deyil. Əgər hər hansı bir şəkildə əlində olan malını-dövlətini ağlınla, ədalətlə, şəfqətlə ehtiyacı olanlara bölüb, yaxşılıq etsən, demək, Tanrının yolundasan, məqsədinə çatmısan. O nəhayətsiz yola ki, ayağını qoydun, Ona nəhayətsiz duaların da yetişəcək, Onun xas adamı olmaq ümidlərin də gercəkləşəcək. Başqa yolda isə belə ümid yoxdur.

*Bəzi adamların da işi-gücü, arzusu-məqsədi ancaq geyinib-keçinmək olur, bunu özünə bir dövlət sayır. Bələləri geyinməklə, özünə ciddi görkəm verməklə, birilərindən: "Bərəkallah, çox ağıllıdır" sözü eşitmək üçün bazarlarda dolanar, özünü ətrafdakılara göstərər və sanki bundan başqa işi olmaz. – Təki kimlərsə onla- ra baxıb, "Kaş, biz də belə olaydıq" və ya "Biz niyə belə ola bilmirk?" desin; onlar qibtə edən- ləri görüncə, bundan şanşərəf duyar.*

(davamı gələn sayımızda)

**Azərbaycan türkcəsinə uyğunlaşdıran:**
**Aida EYVAZLI GÖYTÜRK**